# Bumeranq effekti

## BRICS-yə üzv olmaq istəyən ölkələrin sayı niyə artır




**İnsanlar qədim dövrlərdə də müxtəlif döyüş silahları icad edirdilər. Onların çoxu bir-birinə oxşasa da, bəziləri tamamilə fərqlənirdi. Belə silahlardan biri də bumeranq idi. Həmin silahın özəlliyi ondan ibarət idi ki, hədəfə çatdıqdan sonra geri dönürdü.**

Məlum olduğu kimi, bu gün Qərb və Şərq bloku arasında başlanan hegemonluq uğrunda mübarizə pik həddinə çatıb. Qərb bloku onunla hesablaşmayan Şərqi cəzalandırmaq üçün əsas iqtisadi alət olan sanksiyalardan istifadə edir. Əvvəllər belə hallar çox az olurdu. İndi Qərb, xüsusilə ABŞ total şəkildə sanksiyalar tətbiq etməyə başlayıb. Buna görə dünyada dolların çəngindən və ABŞ-nin nəzarətində olan qlobal ödəmə sistemindən azad olmaq istəyənlərin sayı gündən-günə artır. O üzdən yeni iqtisadi birliklərin yaranmasına da daha çox dövlət dəstək verir.

Amerikanın bu anormal siyasətini təkcə iqtisadçılar və maliyyəçilər tənqid etmir. Artıq bir çox amerikalı siyasətçilər də bunun ABŞ üçün yaxşı olmayacağı qənaətindədirlər. Əbəs deyil ki, ABŞ prezidentliyinə namizəd olan, eks-prezident Donald Tramp Ağ ev administrasiyasını total şəkildə sanksiyalar tətbiq etdiyinə görə tənqid atəşinə tutur. Deyir ki, beynəlxalq valyuta olan dollara dünyada inam azalıb. Məlumdur ki, Amerikanı güclü edən həm də amerikan dolları idir. Əgər dollar beynəlxalq valyuta kimi dəyərini itirsə, bundan ən çox əziyyət çəkən elə ABŞ olacaq.

Bununla bağlı tanınmış rusiyalı iqtisadçı Valentin Katsanov bildirmişdir ki, indiki halda qlobal maliyyə sistemi həyat qabiliyyətini itirir. Onun fikrincə, çıxış yolu əvvəlki kimi, ehtiyat valyuta qızıl olmalıdır: "Əvvəllər dolların istinad aktivi kimi qızıl olmuşdur. Bir neçə onilliklərdir ki, dolların heç bir istinad aktivi yoxdur. Əgər birdən-birə dollar aradan qalxarsa, onu əldə edənlərin əlində sadəcə dəyərsiz kağız parçaları qalacaq".

Hazırda Qərbin təsir dairəsindən qurtulmaq üçün Şərq bloku yeni güclü iqtisadi birlik və etibarlı ödəmə sistemi yaratmaq istəyir. Əgər bu birliyin inkişafı baş tutarsa, şübhəsiz, onların da avro kimi bir ortaq valyutası olacaq. Düzdür, bu, asan hədəf deyil. Ona görə ki, uzun illərdir dollar dünyanın aparıcı valyutasıdır, dövlətlərin valyuta ehtiyatları əsasən dollarladır, bütün strateji məhsullar da dünya birjalarında bu valyuta ilə satılıb-alınır. Bununla belə, bu, mümkünsüz də deyil.

Bu gün Qərb blokunun qarşısındakı ən böyük iqtisadi qurum BRICS-dir. Təşkilatın yarandığı gündən ona böyük maraq var, qoşulmaq istəyən ölkələrin sayı getdikcə artır. İran, Səudiyyə Ərəbistanı, Misir, Efiopiya, Argentina, Birləşmiş Ərəb Əmirlikləri müraciət ediblər. Bu sıraya artıq Azərbaycan və Türkiyəni də əlavə etmək olar.

Belə hal Qərb blokunda ciddi narahatlığa səbəb olub. Məsələn, Türkiyə kimi güclü bir dövlətin BRICS-yə qoşulması Avropada siyasi, hərbi və iqtisadi güc balansının pozulmasına səbəb ola bilər. İndi Avropada gec də olsa, öz səhvlərini anlayıblar. Başa düşüblər ki, 70 ilə yaxın Türkiyəni Avropa İttifaqının qapısı arxasında gözlətmələri ilə səhv ediblər.

BRICS Avropa İttifaqından fərqli olaraq dini dəyərlər üzərindən siyasət aparmır. Onun üzvü olan və olmaq istəyən ölkələrin dini inancların baxdıqda bu, aydın görünür. Azərbaycanın da bu birliyə qoşulmaq istəyinin bir səbəbi budur. Biz haqlı olduğumuz halda bəzi Avropa ölkələrinin və liderlərinin xristian təəssübkeşliyindən çıxış edərək Ermənistanın mövqeyini müdafiə etmələrini görməzliyə vura bilmərik. İkincisi, Azərbaycan indiyədək öz milli maraqlarından çıxış edərək siyasət aparıb və indi də bunu davam etdirir.

Türkiyə və Azərbaycanla BRICS-də türk dövlətləri faktorunun olacağını da unutmaq olmaz. Üstəlik, Qərb blokları tərəfindən yaradılan təşkilatlardan fərqli olaraq BRICS-də birinci və ikinci dərəcəli dövlətlər yoxdur və olmayacaq. Yəni BRICS veto qoyan ölkələr və buna imkanı olmayan ölkələrin təşkilatı deyil. O üzdən təşkilata qoşulmaq istəyən ölkələrin sayı çoxalır və yaxın gələcəkdə bu prosesin vüsət alması gözlənilir.

Amma elə indi də BRICS-yə üzv və üzvlüyə müraciət edən ölkələr həm əhali, həm də təbii sərvətlər sarıdan zəif və kasıb deyillər. Ona görə də indi əsas məsələ bu təşkilata daxil olan ölkələrin yüksək texnologiyalara sahib olmasıdır. Bu isə istək və zaman məsələsidir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 12 sentyabr, (№198).- S.5.